## 28.2020: Xəbər

## Ətraf mühit və Coğrafiya departamentinin müəlliminin yeni kitabı çapdan çıxmışdır

Xəzər Universitetinin Ətraf mühit və coğrafiya departamentinin əməkdaşı, coğrafiya üzrə fəlsəfə doktoru Rövşən Kərimovun həmmüəllifi olduğu "Ekomiqrant icma əsaslı kooperativlərin idarə olunması" adlı kitab çapdan çıxmışdır. Kitab Avropa Birliyinin "Regional və kənd yerlərinin inkişafına dəstək" Proqramı çərçivəsində maliyyələşdirilmiş, "Rüzgar" Ekoloji İctimai Birliyinin müvafiq qrant müsabiqəsinin qalibi qismində layihə üzrə həyata keçirilən fəaliyyətlərin tərkib hissəsi olaraq yazılmışdır. 2017-2020-ci illərdə icra olunmuş həmin layihə "Telişli ekomiqrant icmasında bazar rəqabətli gəlir mənbələrinin formalaşması üçün kənd təsərrüfatı təşəbbüsləri" adlanır. Çap olunmuş kitabın həmmüəllifi Qətibə Nəcəfova, redaktoru isə AMEA-nın professoru İslam Mustafayevdir.

Kitabda Azərbaycanın İmişli rayonundakı Telişli ekomiqrant icmasının daşqından əvvəl və sonrakı sosial rifahı, ərazinin ekoloji vəziyyəti müqayisəli təhlil olunur, icmanın kooperasiya əsasında kənd təsərrüfatı təşəbbüslərinin dəstəklənməsi üzrə fəaliyyətləri haqqında məlumatlar verilir. Rövşən Kərimov təbii fəlakətlər və əlverişsiz təbii-ekoloji şəraitlə əlaqədar baş verən əhali miqrasiyasını, ekomiqrantların problemlərinin həll olunması imkanlarını, bu sahədə digər ölkələrin təcrübəsini tədqiq etmişdir. O, həmçinin kənd yerlərində rifahın yaxşılaşdırılması və icma təşəbbüsləri məsələlərini, kənd təsərrüfatı kooperativlərinin inkişafı və idarə olunmasında dünya təcrübəsini araşdırmışdır. Kitabda verilən tövsiyələr analoji vəziyyətdə olan kənd icmaları üçün təbliğat vasitəsi kimi istifadə oluna bilər.

